**ELEKTRON BANK XİDMƏTİNİN GÖSTƏRİLMƏSİNƏ DAİR RAZILAŞMA**
**(fiziki şəxslər üçün)**

**Razılaşmada istifadə olunan anlayışlar:**

**Elektron bank xidməti (e-bank xidməti)-** identifikasiya məlumatlarından istifadə etməklə İnternet Bankçılıq və ya Mobil Bankçılıq xidmətləri vasitəsilə müvafiq əməliyyatların aparılması və/və ya müəyyən məlumatların verilməsi, ərizələrin emalı ilə bağlı internet, elektron poçt, mobil qoşulmalar və ya digər elektron cihaz vasitəsilə məsafədən bankın təklif etdiyi xidmət (hesablar və borclar haqqında məlumat, hesabdan köçürmələr, konvertasiya, digər xidmətlərin qoşulması, bank tərəfindən qanunvericiliklə qadağan olunmayan formada məlumatların, bildirişlərin, xəbərdarlıqların göndərilməsi və sair) nəzərdə tutulur.
**Bank –** "Premium Bank" Açıq Səhmdar Cəmiyyəti;
**İstifadəçi-** Bankın müştərisi olan İnternet və\və ya Mobil Bankçılıq üzrə qeydiyyatdan keçmiş və bu Razılaşma ilə şərtləşdirilmiş qaydaları qəbul edən fiziki şəxs;
**İnternet bankçılıq -** Banka getmədən, onlayn rejimdə hesabları idarə etmək və müxtəlif bank əməliyyatlarını həyata keçirmək imkanı verən e-bank xidmətidir.
**Mobil Bankçılıq** – Bu razılaşmada müəyyən olunmuş hallarda Asan imzadan və ya Mobil imzadan istifadə etməklə internet vasitəsilə Razılaşmada nəzərdə tutulmuş əməliyyatların aparılmasına və sənədlərin təsdiq edilməsinə imkan yaradan proqramdır. Programa çıxış istənilən mobil operatorların abonenti olan istifadəçilərə verilir.
**İdentifikasiya məlumatları** – İstifadəçinin hüquqi sənədləri, şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi, mobil nömrəsi, elektron poçt ünvanı, bank əməliyyatlarının həyata keçirilməsi üçün nəzərdə tutulmuş, İstifadəçinin istifadəsində olan fərdi istifadəçi adı (login), parol (password), giriş kodu,təhlükəsizlik şifrəsi, təsdiq SMS şifrəsi, Ödəniş kartının ŞEN-i, qanunvericiliklə nəzərdə tutulmuş elektron imza və İstifadəçini eyniləşdirməyə imkan verən digər bu kimi məlumatlar nəzərdə tutulur. İdentifikasiya məlumatları İstifadəçinin öz əl imzasının analoqu kimi qəbul olunur.
"**Elektron sənəd**" – informasiya sistemlərində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəd.
**Şifrə** – İnternet və Mobil Bankçılıqda qeydiyyatdan keçməsi nəticəsində İstifadəçi tərəfindən yaranmış bu proqrama daxil olub, Razılaşmada nəzərdə tutulmuş əməliyyatları və sənədləri təsdiq etmək üçün istifadə olunan, İstifadəçinin eyniləşdirilməsini təmin edən rəqəmlərin ardıcıl toplusudur.
**Elektron cihaz** - kompüter, telefon, mobil telefon, smartfon, ATM (bankomat- kartlarla nağd pulun verilməsi üçün istifadə olunan **bank** avtomatlarıdır), özünə xidmət (ödəniş) terminalları və bu məqsədlə istifadə edilə bilən istənilən digər elektron cihaz;
**Elektron imza** - digər verilənlərə əlavə edilən və ya onlarla məntiqi əlaqəli olan, yalnız imza sahibinə məxsus olmaqla əlaqəli olduğu imza sahibini identikləşdirməyə imkan verən verilənlərdir.
**Asan İmza – (Aİ)** İstifadəçinin şəxsi imzasının analoqu olan onun mobil telefon SİM-katına bağlı rəqəmsal imzadır. Asan İmza ilə istifadəçinin şəxsiyyəti təsdiq olunur və sənədlərə rəqəmsal imza qoyulur.
**Mobil İmza – (Mİ)** İstifadəçinin SİM kartına bağlanılmış e-xidmətlərə daxil olan və rəqəmsal imzalar edən zaman kimliyinizi təsdiqləmək üçün sizin ***mobil*** identifikasiyadır.
**Mobil telefon nömrəsi -** İstifadəçinin qeydiyyatdan keçməsindən əvvəl Bankla hər hansı sazişin bağlanması zamanı təqdim etdiyi və işlək vəziyyətdə olan mobil telefon nömrəsi nəzərdə tutulur.
**Tariflər** – Bankın göstərdiyi xidmətlərə görə İstifadəçi tərəfindən ödənilməli olan məbləğlər: (komisyon haqları, cərimələr, faizlər və s.)
**Fors-major hallar –** tərəflərin iradəsindən asılı olmayan və əvvəlcədən qarşısını almaq və ya aradan qaldırmaq mümkün olmayan səbəblər üzündən öhdəliklərin yerinə yetirilməməsinə görə məsuliyyətdən azad olmağı nəzərdə tutan tədbir.
**Əməliyyat müddəti və ya əməliyyat vaxtı – bu Razılaşmada qeyd olunmuş istisnalar nəzərə alınmaqla, elektron tapşırıqların icra edilməsi üçün iş günləri saat 10:00-dan 17:00-dək müəyyən edilən vaxt.**

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Bu Razılaşmaya görə Bank İstifadəçiyə e-bank xidmətlərinin göstərilməsini təmin edir, İstifadəçi isə həmin xidmətlərdən razılaşdırılmış şərtlər daxilində istifadə edir.

**1.2.** Bu Razılaşmaya imza etməklə İstifadəçi Bankın mövcud və gələcəkdə təklif edəcəyi bütün növ e-bank xidmətlərdən istifadə hüququnu əldə edir və bu xidmətlərdən istifadə qaydaları bu Razılaşma ilə müəyyən edilir. Əgər İstifadəçi ilə bundan qabaq bağlanılan e-bank xidmətinə dair istənilən sazişin şərtləri və

müddəaları ilə bu Razılaşmanın müddəaları arasında ziddiyyət yaranarsa, bu Razılaşmanın şərtləri və müddəaları üstünlük təşkil edir.

**1.3.** Bank bu Razılaşma üzrə təklif olunan e-bank xidmətlərini İstifadəçi tərəfindən verilən identifikasiya məlumatları əsasında təqdim edir. Əgər qanunvericiliklə başqa hal nəzərdə tutulmayıbsa, Bank İstifadəçidən əlavə informasiyanı sorğu etmək hüququnu özündə saxlayır.

**1.4.** Elektron cihazlar vasitəsilə imzalanmış e-bank xidmətlərinə aid istənilən müqavilə/razılaşma çatdırılmış və bağlanılmış “yazılı müqavilə/razılaşma” hesab olunur.

**1.5.** **İstifadəçi razılaşır ki, İstifadəçi tərəfindən identifikasiya və verifikasiya məlumatlarından istifadə etməklə, elektron cihazlarla və/və ya qanunvericiliklə qadağan olunmayan digər üsullarla (Asan İmza, Mobil İmza, birdəfəlik SMS şifrə və s.) aparılan istənilən əməliyyatlar, İstifadəçi tərəfindən aparılan əməliyyatlar kimi qəbul olunur və identikifasiya məlumatları hər hansı mübahisə predmeti qismində çıxış etmir.**

**1.6.** Bank İstifadəçiyə əvvəlcədən heç bir bildiriş vermədən, bir tərəfli qaydada e-bank xidmətləri sahəsində bank xidmətlərinin istənilən hissəsinə əlavələr etmək, çıxartmaq, dəyişmək, tariflərə əlavə və ya dəyişikliklər etmək, sistemə dəyişikliklər etmək və yeniləmək hüququnu özündə saxlayır.

**1.7.** İstifadəçi qəbul edir ki, identifikasiya məlumatları vasitəsilə ona göndərilən məlumatların üçüncü şəxslərin əlinə keçməsinə görə bütün risklər (real zərər, əldən çıxmış fayda, bütün digər ziyan ) onun üzərinə düşür.

**1.8.** İstifadəçi tərəfindən qeyd edilən identifikasiya məlumatları və digər verilənlər İstifadəçinin son verilənləri kimi qəbul edilir və onlar, İstifadəçi Bankla olan bütün münasibətlərinə (müqavilələr də daxil olmaqla) aid edilir. Bu məqsədlə, əvvəl təqdim edilən identifikasiya məlumatları və digər verilənlər qüvvədən düşmüş hesab olunur.

**1.9.** Bank tərəfindən bu Razılaşma çərçivəsində çatdırılmalı olan bütün məlumatlar tərəflər arasında bağlanmış “Bank hesabının açılması və aparılması müqaviləsi”ndə qeyd olunan və ya yazılı surətdə banka təqdim edilmiş digər identifikasiya məlumatları vasitəsi ilə İstifadəçiyə göndəriləcəkdir. Göndərilmiş məlumatlar İstifadəçi tərəfindən qəbul edilmiş sayılır.

**<u>Tərəflər arasında Razılaşma:</u>**

**1.10.** İstifadəçi e-bank xidməti sisteminə qoşulmaq üçün Banka sifariş (ərizə) verir və ya real vaxt rejimində www.online.premiumbank.az/ internet səhifəsində və ya mobil əlavədə qeydiyyatdan keçir. E-bank xidməti sistemində sənədləri təsdiq etmək hüququna yalnız İstifadəçi Banka təqdim etdiyi sifarişdə (ərizədə) qeyd olunan səlahiyyətli şəxslər malikdir. İstifadəçi bu Razılaşma ilə ona məlum olan məlumatları istənilən vasitə ilə üçüncü şəxslərə açıqlamamaq, İstifadəçilərin sistemdə istifadə olunan adlarını, parolları və kodları gizlin saxlamaq və üçüncü şəxslərə verməmək, sistemin təşkili və fəaliyyətinin xüsusiyyətlərini üçüncü şəxslərə açmamaq (Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə və ya tərəflər arasında əlavə sazişlə nəzərdə tutulan hallar istisna olmaqla) öhdəliyini öz üzərinə götürür. İstifadəçiyə məxsus və ya bu Razılaşma üzrə e-bank xidmətlərinin yerinə yetirilməsi üçün nəzərdə tutulan məlumatların üçüncü şəxslər tərəfindən əldə edilməsi, üçüncü şəxslər tərəfindən bu məlumatları istifadə edilərək əməliyyat aparılması üçün İstifadəçi cavabdehdir. Bu hərəkətlərin baş verdiyi zaman məsuliyyəti İstifadəçi daşıyır və bu halda İstifadəçi Banka heç bir tələb irəli sürə bilməz. İstifadəçilərin sistemdə istifadə olunan adlarını, parolları və kodları üçüncü şəxslərə bildirdikləri və ya üçüncü şəxslər tərəfindən bunlar istifadə etdiyi zaman İstifadəçi məsuliyyət daşıyır.

**1.11.** Razılaşmanı real vaxt rejimində (online) imzalayarkən İstifadəçi özünə məxsus eyniləşdirmə məlumatlarını (mobil telefon nömrələri, elektron poçt ünvanını və s.) “Bank”a təqdim edir. Həmin məlumatlar “Tərəflər” arasında e-bank xidməti çərçivəsində aparılacaq əməliyyatlar zamanı “Bank” tərəfindən İstifadəçinin eyniləşdirilməsi və yerinə yetiriləcək əməliyyat risklərinin baş verməməsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə istifadə ediləcək.

**1.12.** İstifadəçi e-bank xidməti vasitəsi ilə hesabları barədə məlumat əldə etmək, onlayn ödəmələri həyata keçirmək, bank hesablarının açılması və bağlanması üçün elektron müraciət etmək, kart sifarişini etmək, konvertasiya əməliyyatlarını yerinə yetirmək və digər bank xidmətlərdən istifadə etmək imkanın əldə etmiş olacaq;

**1.13.** Hər hansı əməliyyatın aparılması üçün İstifadəçidən ona verilmiş daimi şifrədən və birdəfəlik şifrədən (ikili autentifikasiya) istifadə etməklə əməliyyatın aparılması tələb olunacaqdır. Birdəfəlik şifrənin və sistemdə aparılan digər əməliyyatların təsdiqinin göndərilməsi üçün İstifadəçinin e-bank xidmətinə qoşulması zamanı qeydə alınan mobil nömrəsi istifadə olunur və ya oluna bilər. Həmin mobil nömrənin digər şəxslər tərəfindən istifadəsinə görə “Bank” məsuliyyət daşımır.

**1.14.** E-bank xidməti vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.

**1.15.** İstifadəçi e-bank xidmətinə daxil olmaq üçün qeydiyyatla bağlı olan məlumatların (yazılar, kodlar və s.) yalnız xüsusi səlahiyyətli şəxslərə ötürülməsini öhdəsinə götürür. İstifadəçi məxfi verilənlərdən istifadə

etməklə əməliyyatların və digər hərəkətlərin yerinə yetirilməsi nəticəsində Banka zərər vurduqda məsuliyyət daşıyır.

**1.16.** İstifadəçi razılaşır ki, e-bank xidmətin göstərilməsi zamanı avadanlıqlarda, şəbəkədə, əlaqə xətlərində baş verən istənilən nasazlıqlara, həmçinin İstifadəçinin icazəsi əsasında onun adından e-bank xidmətindən istifadə edən şəxs/şəxslər tərəfindən həmin məlumatların (hesablar, hesablarda qalıq pul vəsaitləri, hesablar üzrə əməliyyatlar və s.) üçüncü şəxslərə yayılmasına görə Bank məsuliyyət daşımır. Bu zaman hər hansı itkilərə görə risk İstifadəçinin üzərinə düşür;

**1.17.** İstifadəçi razılaşır ki, onun, bu Razılaşma ilə nəzərdə tutulmuş vasitələr ilə imzalanmış olduğu bütün elektron sənədlər, kağız daşıyıcıda olan müvafiq sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

**1.18.** İstifadəçi aparılan əməliyyatlar üzrə "Bank"ın mövcud tarifləri və şərtləri ilə müəyyən edilən xidmət haqlarını ödəyir. "Bank", hesablanmış xidmət haqlarını İstifadəçinin hesablarında olan vəsaitlərdən akseptsiz qaydada tuta bilər. İstifadəçi seçilmiş əməliyyatları icra etməklə, mövcud tariflərlə razı olduğunu və xidmət haqlarının onun bank hesabından akseptsiz qaydada tutulmasına razı olduğunu ifadə etmiş olur.

**<u>Bankın hüquq və vəzifələri:</u>**

**1.19.** İstifadəçi bu Razılaşma üzrə öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə, qanunvericilikdə göstərilmiş hallar istisna olmaqla, digər hallarda müştəriyə elektron və ya kağız daşıyıcıda məlumat verməklə xidmətlərin göstərilməsini birtərəfli qaydada dayandırmaq;

**1.20.** Öz mülahizəsinə uyğun olaraq, İstifadəçini 1 (bir) gün qabaqcadan yazılı qaydada xəbərdar etməklə, birtərəfli qaydada xidmətdən istifadə qaydalarını dəyişmək;

**1.21.** İstifadəçinin hesabı bloklaşdırıldıqda, ona həbs qoyulduqda və ya AR qanunvericiliyi ilə tələb olunan digər hallarda əmliyyatların icrasını məhdudlaşdırmaq;

**1.22.** İstifadəçinin bankda olan hesablarından özünün xidmət haqlarını akseptsiz qaydada silmək;

**1.23.** Sistemdə texniki nasazlıqlar və ya elektron sənədlərin istifadə edilməsinə maneçilik törədən hallar olduqda, birtərəfli qaydada, sistemin işini 3 (üç) gün müddətinədək dayandırmaq və elektron sənədlərlə mübadiləni təxirə salmaq. Bu halda Bank və İstifadəçi arasında sənədlərin mübadiləsi ümumi qaydada kağız daşıyıcılarda təqdim olunmalıdır.

**1.24.** İstifadəçidən bu Razılaşma üzrə ona məlum olan məlumatların üçüncü şəxslərə açıqlanmamasını tələb etmək.

**1.25.** İstifadəçinin hesabında vəsait çatışmadıqda, ödəniş tapşırığını aldığı andan 1 (bir) gün ərzində İstifadəçini xəbərdar etməklə, onun hesabı/hesabları üzrə əməliyyatları yerinə yetirməmək.

**1.26.** E-bank xidmətinin həyata keçirilməsi zamanı istifadəçinin istənilən borcunun silinməsi ilə əlaqədar səhv əməliyyatlar aparıldıqda, Bank İstifadəçinin razılığını almadan aparılmış əməliyyatların ləğvini həyata keçirə bilər;

**1.27.** İstifadəçinin fəaliyyətinin Bank üçün zərər gətirə biləcəyini hesab etmək üçün Bankda kifayət qədər əsaslar olduğu təqdirdə və ya İstifadəçinin bank hesabından digər qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübuta yetirildikdə (çirkli pulların yuyulması, korrupsiya və terrorizmin maliyyələşdirilməsi) İstifadəçiyə, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, elektron və ya kağız daşıyıcıda məlumat verməklə birtərəfli qaydada bu Razılaşmaya xitam vermək və İstifadəçiyə sistem üzrə xidmət göstərilməsini dayandırmaq.

**1.28.** İstifadəçi ilə bağlı bank sirrini təşkil edən məlumatların konfidensiallığını təmin etmək (qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla);

**1.29.** İstifadəçi tərəfindən müəyyən edilmiş formada verilmiş və İstifadəçinin elektron imza vasitələri ilə təsdiq edilmiş elektron tapşırıqlarını icra etmək;

**1.30.** İstifadəçi sistemdə qeydiyyata alındıqdan sonra növbəti bank günündən başlayaraq sistemdən istifadə etməsi üçün şərait yaratmaq.

**1.31.** İstifadəçinin ödəniş tapşırıqları bu Razılaşmanın şərtlərinə uyğun olduqda bank əməliyyatlarını həyata keçirmək.

**<u>İstifadəçinin hüquq və vəzifələri:</u>**

**1.32.** Sistemdə qeydiyyata alındıqdan sonra növbəti bank günündən başlayaraq, sistemdən istifadə etmək.

**1.33.** Elektron ödəniş tapşırıqları bu Razılaşma ilə uyğun olduqda, bank əməliyyatlarının aparılmasını tələb etmək.

**1.34.** Banka yazılı şəkildə ərizə ilə müraciət edərək identifikasiya məlumatlarında dəyişikliklər etmək;

**1.35.** İstifadəçi, aşağıdakı hallardan hər hansı biri baş verdikdə, dərhal banka yazılı bildiriş təqdim etməlidir:
- bank hesabında olan vəsaitdən səlahiyyətsiz şəxslər tərəfindən istifadə edildikdə;
- bank hesabı üzrə əməliyyatlarda hər hansı səhv və ya uyğunsuzluq aşkar etdikdə;
- Qeydiyyat zamanı qeydə alınmış mobil nömrəsini və telefonunu itirdikdə ((012) 931 qısa nömrəsinə bildirilə bilər);
- autentifikasiya məlumatlarına səlahiyyətsiz giriş üzrə şübhə doğuran halları müəyyən etdikdə;
- E-bank xidməti üzrə texniki nasazlığın mövcudluğu və ya eyniləşdirmə üsullarında səhv baş verdikdə.
- İstifadəçi özü şəxsən və ya İstifadəçinin adından bu Razılaşma üzrə bank əməliyyatlarını aparmağa səlahiyyəti olan şəxs hər hansı səbəbdən dəyişdikdə, əvəz edildikdə və ya digər üsulla bank əməliyyatlarının aparılması hüququndan məhrum olduqda;.

**1.36.** Banka yazılı məlumat verilmədən İstifadəçi tərəfindən bank əməliyyatlarını aparmaq hüququ və lazımi məlumatlar başqa şəxslərə verildikdə, həmin şəxslər tərəfindən həyata keçirilmiş bank əməliyyatlarının nəticələrinə görə Bank məsuliyyət daşımır və bu halda Banka qarşı tələb sürmək ixtiyarı yoxdur;

**1.37.** Sistemdəki elektron sənədləri tələb olunan qaydada doldurmaq;

**1.38.** Əməliyyatların və sənədlərin təsdiq edilməsi zamanı şifrə İstifadəçinin imzasının analoqu kimi qəbul olunur. Şifrə ilə təsdiq olunmuş sənədlər kağız daşıyıcıda olan İstifadəçinin şəxsi imzası ilə təsdiq olunmuş sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

**1.39.** Bank heç bir halda sms və ya email vasitəsilə identifikasiya məlumatları ilə bağlı sorğu göndərməyəcəkdir. Bu səbəbdən İstifadəçi, telefon, e-mail və ya başqa bir bənzər mənbədən gələn tələb üzrə qarşılaşsa, heç bir məlumat verməməlidir;

**1.40.** Sistemə, digər şəxslər tərəfindən səlahiyyətsiz giriş cəhdinin aşkar edilməsi, habelə bu cür girişi mümkün edən vəziyyətlər, və ya onun qeydiyyat məlumatlarının üçüncü şəxslər tərəfindən rabitə xətti ilə açıq şəkildə ötürülməsi halları haqqında Bankı dərhal məlumatlandırmaq;

**1.41.** İstifadəçi, ödənişi alanın rekvizitlərinin düzgünlüyünə, ödənişin təyinatının və sistem üzrə Banka göndərilən elektron sənədlərdə göstərilən digər məlumatların qanunvericiliyin və digər normativ sənədlərin tələblərin uyğunluğuna nəzarət etməyə borcludur. Göstərilən səbəblərdən sənədin lazımi səviyyədə tərtib olunmaması üçün məsuliyyət İstifadəçinin üzərinə düşür;

**1.42.** Ödəniş əməliyyatlarının aparılması üçün bankda mövcud olan hesablarında vəsaitlərin yetərliliyinə nəzarət etmək və ödənişləri ancaq hesablardakı qalığın hüdudlarında həyata keçirmək;

**1.43.** Sənədlərin təqdim edilməsini tələb edən əməliyyatların, o cümlədən valyuta əməliyyatlarının yerinə yetirilməsi zamanı, lazımı sənədləri kağız daşıyıcılar və ya, faksimil rabitə vasitəsilə ötürdükdən sonra, əməliyyatın keçirilməsindən 1(bir) gündən gec olmayaraq, sənədlərin əslini Banka təqdim etmək;

**1.44.** İstifadəçi, Bankın razılığı olmadan, bu Razılaşma ilə nəzərdə tutulmuş hüquq və öhdəlikləri üçüncü şəxsə verə bilməz.

**1.45.** Əməliyyatların aparılması üçün birdən artıq şəxsin təsdiqi tələb edildiyi halda bütün şəxslərin təsdiqinin mövcudluğunu təmin etmək;

**1.46.** Qanunvericiliklə müəyyən edilmiş qaydada İstifadəçiyə aid olan istənilən məlumatın Bank tərəfindən açılmasına, ötürülməsinə və ya yayılmasına etiraz etməmək və bununla bağlı Banka qarşı hər hansı tələb irəli sürməmək;

## 2. E-BANK XİDMƏTİNƏ GİRİŞ VƏ İSTİFADƏ QAYDALARI.

**2.1. Elektron cihazlardan istifadə etməklə İnternet və Mobil Bankçılıqda 2 üsulla qeydiyyatdan keçmək mümkündür:**

**FİN kod vasitəsilə qeydiyyat** - FİN kod ilə qeydiyyat zamanı İstifadəçi ilkin olaraq “FİN kod ilə qeydiyyat” düyməsini sıxır, açılan səhifədə mobil nömrəsini və tələb olunan şəxsi məlumatları daxil edir. Məlumatları daxil etdikdən və təqdim olunan elektron Razılaşma ilə tanış olduqdan sonra İstifadəçi, “Mən razılaşmanın şərtləri ilə razıyam” xanasını seçir və qeyydiyyatdan keçir. Qeydiyyatdan keçdikdən sonra “Davam etmək” düyməsinə sıxır, mobil nömrəsinə göndərilən birdəfəlik şifrəni daxil etdikdən sonra, şəxsi şifrənin yaradılması səhifəsi açılır və İstifadəçi İnternet Bankçılığa daxil olmaq və əməliyyatları aparmaq üçün şəxsi şifrəni müəyyən edir. Şəxsi şifrəni yaratmaq üçün İstifadəçi birdəfəlik şifrəni qeyd edir və yeni şifrəni yaddaşa salır ( şifrə minimum 7 simvoldan ibarət olmalıdır, böyük hərif, kiçik hərif və rəqəmlər istifadə olunmalıdır).

**Asan İmza vasitəsilə qeydiyyat** - İstifadəçi Asan İmzaya qoşulub Mobil Bankçılıqda “Asan İmza vasitəsilə qeydiyyatdan keçmə”yi seçməklə müvafiq xanalara mobil telefon nömrəsini və Asan Xidmət tərəfindən təqdim olunmuş Asan ID–ni daxil edir. Daxil edilmiş məlumatlar düzgün olduğu təqdirdə İstifadəçinin mobil telefon nömrəsinə sorğu göndərilir. İstifadəçi Mobil Bankçılığa daxil olmaq üçün Asan PIN 1 –dən, əməliyyatları aparmaq üçün isə Asan PIN 2-dən istifadə edir.

**2.2. İnternet və Mobil Bankçılıq xidmətlərinə 2 üsulla giriş etmək mümkündür:**

**Login və şifrəni daxil etməklə giriş** – İstifadəçi İnternet və Mobil Bankçılıq xidmətlərinə “Login və şifrə” vasitəsilə giriş edərkən, qeydiyyat zamanı daxil etdiyi login və şifrəni müvafiq xanalara daxil edir. Daxil edilmiş məlumatlar düzgün olduğu təqdirdə İstifadəçinin mobil telefon nömrəsinə bir dəfə üçün istifadəsi nəzərdə tutulmuş 4 rəqəmli şifrə göndərilir. 4 rəqəmli şifrəni İnternet Bankçılığın müvafiq xanasına daxil etdikdən sonra İstifadəçi İnternet Bankçılığa daxil olur.

**Asan İmza ilə giriş** – İstifadəçi İnternet Bankçılıq xidmətinə Asan İmza ilə giriş edərkən müvafiq xanalara mobil telefon nömrəsini və Asan ID –ni daxil edir. Daxil edilmiş məlumatlar düzgün

olduğu təqdirdə istifadəçinin mobil telefon nömrəsinə sorğu göndərilir. Asan PIN 1 daxil edib, təsdiqləndikdən sonra İstifadəçi İnternet Bankçılığa daxil olur.

**2.3. İnternet və Mobil bankçılıq vasitəsilə bankda hesabı mövcud olan müştəri tərəfindən aşağıdakı əməliyyatlar aparıla\sənədlər imzalana bilər:**

**2.3.1.** Cari bank hesablarının açılması və bağlanması;

**2.3.2.** İstifadəçinin cari hesablarından pul vəsaitinin bankdaxili cari hesablara köçürülməsi,valyuta mübadiləsi,o cümlədən kart hesabından cari hesablara, cari hesabdan kart hesablarına bankdaxili köçürmələr;

**2.3.3.** İstifadəçinin cari və kart hesablarından kütləvi ödəniş əməliyyatlarının aparılması (kommunal xidmətlərin ödənişi, internet provayder və s.);

**2.3.4.** Bank qarşısında olan kredit borclarının ödənilməsi;

**2.3.5.** Bank hesablarından çıxarışların və İstifadəçinin rekvizitlərinin qeyd olunmuş elektron poçt ünvanına göndərilməsi;(komissiyon haqqların ödənilməsi şərti ilə)

**2.3.6.** Ödəniş kartlarının sifariş edilməsi. *(Müqavilələr və müvafiq sənədlər Bankın baş ofisində və ya filiallarında imzalanır*)

**2.3.7.** Ödəniş kartlarının bloka salınması və blokdan çıxarılması; (yalnız İnternet və Mobil Bankçılıq vasitəsilə bloka salınmış ödəniş kartları)

**2.3.8.** Ölkə daxili və beynəlxalq köçürmə əməliyyatlarının aparılması;

**2.3.9.** Kreditlərin əldə edilməsi üçün sifariş verilməsi;

**2.3.10.** Səfirliklərə və Konsulluqlara dair məktubların əldə edilməsi üçün sifariş verilməsi.

**Qeyd: Razılaşmanın 2.3.1, 2.3.8-ci bəndlərində qeyd olunmuş əməliyyatlar ASAN imza və Mobil imza ilə, digər əməliyyatlar isə SMS vasitəsilə təsdiqlənir.**

## 3. İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ METODLARI

**3.1.** ***İstifadəçinin E-bank xidməti sistemində Autentifikasiyası.***

**3.1.1.** **İstifadəçinin *İnternet/ Mobil Bankçılıq*** sistemindən istifadə etməsi ikili autentifikasiya (Login, Parol və birdəfəlik şifrə SMS, OTP (birdəfəlik şifrə kartı) və ya ASAN imza, Mobil İmza) əsasında həyata keçirilir.

**3.1.2.** Bank, İstifadəçinin ***İnternet/ Mobil Bankçılıq*** sisteminə girişini yalnız ikili autentifikasiyadan keçdikdən sonra sistemdə olan məlumatlarla uyğunluq təşkil etdiyi təqdirdə təqdim edir.

**3.1.3.** Tərəflər təsdiq edirlər ki, autentifikasiya zamanı İstifadəçi tərəfindən istifadə olunan Login unikaldır və Sistemə girişin İstifadəçi tərəfindən həyata keçirilməsini təsdiq edir.

**3.2.** İdentifikasiya məlumatları və rəqəmsal imza yüksək səviyyəli təhlükəsizlik texnologiyası və müvafiq kodlarla qorunur. Mobil telefon eyni zamanda həm rəqəmsal imza üçün smart kart (ASAN və Mobil imza kartı), həm də kart oxuyucu qurğu kimi istifadə olunur. ASAN imza və Mobil İmza (Mobile ID) e-bank xidmətləri mühitinə giriş üçün təhlükəsizlik aləti hesab edilir və rəqəmsal imzanın qoyulmasına imkan verir.

**3.3. E-bank xidmətindən istifadə edərkən aşağıda göstərilmiş imza üsullarından istifadə etmək lazımdır**:

1)Asan və ya Mobil imza;

2) SMS vasitəsilə (4 rəqəmli birdəfəlik şifrə).

**3.4. Aşağıdakı təhlükəsizlik qaylarına riayət edilməsi tövsiyyə olunur:**

**3.4.1.** İmzalama açarları SIM kartda yerləşdiyi üçün telefonda quraşdırılan SIM kartı və kodları, habelə mobil cihazı 3-cü şəxslərə verməmək;

**3.4.2.** E-bank xidmətinə Asan imza olmayan mobil nömrə ilə qoşulduqda ilkin kod, parol və ya şifrələri dəyişmək;

**3.4.3.** Kod, parol və ya şifrələri telefondan ayrı saxlamaq; məlumatları əzbərləmək və ya etibarlı yerə qeyd etmək;

**3.4.4.** Kodlar üçün sadə kombinasiyalardan (0000, 1111, 1234 və s.), doğum günü\təvəllüd tarixləri, mənzil nömrəsi və s. istifadə etməmək;

**3.4.5.** Mobil telefon oğurlandığı və ya itirildiyi təqdirdə dərhal texniki dəstək xidmətlərinə (Mobil operatorunuza və Banka) müraciət edərək SIM kartını bloka saldırmaq və e-bank xidmətini məhdudlaşdırmaq;

**3.4.6.** "Premium Bank Mobile" əlavəsini mobil telefona yanlız Google Play və ya App Store platformalarından yükləmək;

**3.4.7.** Mobil telefonları gələcəkdə yarana biləcək problemlərdən qorumaq üçün xüsusi antivirus proqramlarından istifadə etmək;

**3.4.8.** İstifadə edilən mobil və digər cihazların istifadəsinə icazə verən müvafiq rəsmi qurumlardan qeydiyyatdan keçməsindən əmin olmaq.

## 4. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

**4.1.** Bu Razılaşma üzrə öz vəzifəsini icra etməyən və ya lazımınca icra etməyən tərəf digər tərəfə vurduğu zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir;

**4.2.** "Bank" aşağıdakı hallara görə məsuliyyət daşımır:

- Xidmətlərin göstərilməsi "Bank"dan asılı olmayan səbəblərdən mümkün olmadıqda, həmçinin öz müxbir banklarının və ya digər üçüncü şəxslər tərəfindən xidmətlər lazımi səviyyədə göstərilmədikdə, yəni ödənişin icrasının gecikdirilməsi və ya digər səbəblərdən məbləğlərin dondurulması hallarında;
- Bu Razılaşmanın müddəalarında göstərilənlərə İstifadəçi tərəfindən əməl olunmayaraq İstifadəçiyə zərər dəydikdə;
- Ödəniş sənədləri "İstifadəçi" tərəfindən müvafiq normativ qaydalara uyğun tərtib olunmayaraq icra edildikdə və ya ödəniş sənədlərində məlumatlar düzgün göstərilmədikdə;
- İstifadəçi tərəfindən e-bank xidməti vasitəsi ilə hər-hansı 3-cü tərəfə səhv və ya əsassız köçürmə edildikdə. Bu halda həmin vəsaitlərin geri ödənilməsi ilə bağlı məsələləri özü tənzimləyir.
- Mobil telefon SİM-kartının və/və ya mobil cihazının itirilməsi, o cümlədən oğurlanması və digər vasitələrlə İstifadəçinin sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi nəticəsində ona dəymiş zərərə görə;
- İnternet və Mobil Bankıçılıq vasitəsilə əməliyyatların aparılması zamanı İstifadəçi tərəfindən rekvizitlərin, məbləğlərin və ya digər məlumatın səhv daxil edilməsinə görə və bunun nəticəsində ona dəymiş zərərə görə;
- Bu Razılaşma ilə nəzərdə tutulmuş digər hallarda.

**4.3.** Bank İstifadəçinin rəqəmsal imza vasitələrindən üçüncü şəxslər tərəfindən istifadə edildiyi zaman, İstifadəçiyə dəymiş zərər üçün heç bir məsuliyyət daşımır.

**4.4.** Bankla İstifadəçi arasında e-bank xidməti ilə əlaqədar mübadilə edilmiş hər hansı bir məlumat gizli xarakter daşıyır və bu məlumatların İstifadəçi tərəfindən hər hansı vasitə ilə üçüncü şəxslərə bildirilməsi və ya üçüncü şəxslər tərəfindən bu məlumatlardan istifadə edərək hər hansı əməliyyatın aparılması nəticəsində dəyən zərər üçün Bank heç bir məsuliyyət daşımır və İstifadəçinin Bankdan dəymiş zərərin ödənilməsi barədə heç bir hüququ yoxdur.

**4.5.** Bank, sistemin işində, Bankın günahı olmadan meydana gələn və İstifadəçinin Elektron sənədi ötürməsini qeyri-mümkün edən dayanmalar üçün tərəfindən qeyd olunan identifikasiya məlumatlarından yalnız qanunvericilik çərçivəsində heç bir sui-istifadəyə yol vermədən istifadə məsuliyyət daşımır. O cümlədən, Bank, İstifadəçinin əməkdaşlarının günahı və ya peşəkar olmayan işi nəticəsində sistemdə dayanmalar üçün məsuliyyət daşımır.

**4.6.** İstifadəçi məxfi verilənlərdən istifadə etməklə əməliyyatların və digər hərəkətlərin yerinə yetirilməsi nəticəsində Banka zərər vurduqda məsuliyyət daşıyır.

**4.7.** İstifadəçi İnternet və ya Mobil Bankçılıqda qeydiyyat zamanı daxil etdiyi məlumatların tam və düzgün olduğunu, bütün məlumatların onun özünə məxsus olduğunu təsdiq edir. Hər-hansı məlumatın səhv daxil edilməsinə və ya ona məxsus olmayan məlumatın daxil edilməsinə, bununla bağlı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.

**4.8.** İnternet və Mobil Bankçılıq vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.

**4.9.** Bank İstifadəçi tərəfindən qeyd olunan identifikasiya məlumatlarından yalnız qanunvericilik çərçivəsində heç bir sui-istifadəyə yol vermədən istifadə edəcəkdir. Bu məqsədlə zərurət yaranarsa, Bank, göstərilən xidmətin dayandırılmasını da həyata keçirə bilər.

**4.10.** Bu Razılaşma ilə müəyyən olunan vəzifənin «İstifadəçi» tərəfindən icra edilməməsi nəticəsində «Bank»a dəyən zərər «İstifadəçi» tərəfindən ödənilməlidir.

## 5. FORS-MAJOR HALLAR

**5.1.** Fors-major hallarında tərəflər Razılaşmanın şərtlərinin tam və ya qismən yerinə yetirilməməsinə görə bir-biri qarşısında heç bir maddi və digər məsuliyyət daşımırlar. Fors-major hallarının baş verməsi nəticəsində bu Razılaşmanın icrası mümkün olmadıqda, onun icrası həmin halın mövcud olduğu müddət ərzində dayandırılır.